

***Aytəkin Mehman***

# *Şuşam*

Sənin hər dağına, qurbanam Şuşam,
Hüsnünə, qoynuna, heyranam Şuşam!
İsa bulağına, Cıdır düzünə,
Yenidən qovuşdum, çox şükür Şuşam!
Xan əminin vətəni Şuşam,
Vaqifin, Rəşidin yurdusan Şuşam!
Üzeyir, Niyazi, Fərhad yurdusan,
Bülbülün, Natavanın ana yurdusan.
Həsrətində olduğum hər daşına qurban,
Hər evinə qurban, ocağına qurban.
Qovuşdurana qurban, Allaha qurban,
Şəhidinə qurban, elinə qurban.
Əlçatmaz deyildir, indi düzlərin,
Deyildir əlçatmaz, xarıbülbülün.
İndi dağların da hər bir gülünün,
Milyon qiyməti var, mənimçün Şuşam,
Gəlmişəm qoynuna dincələm Şuşam!
Çox şükür oylağın bizimdir Şuşam!
Yad əllər qıymasın sənə heç Şuşam,
Əzəldən bizimsən, bizim ol Şuşam!
Torpağın müqəddəs, qalan müqəddəs,
Şəhidin müqəddəs, özün müqəddəs.
Nə xoşdur mənə ki, ata yurdumsan,
Suyumsan, havamsan, həm də canımsan!